# İDMAN

www.azsport.az

Qəzet 1932-ci ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİNİN ORQANI

№ 9 (7104) *4 may 2021-ci il* Qiyməti 40 qəpik


# Azad Arif oğlu Rəhimov



***Azərbaycan ictimaiyyətinə ağır itki üz vermişdir. Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Arif oğlu Rəhimov 2021-ci il aprelin 30-da ömrünün 57-ci ilində vəfat etmişdir.***

Azad Rəhimov 1964-cü il oktyabrın 8-də Bakı şəhərində anadan olmuşdur. O, Bakı şəhəri 134 nömrəli orta məktəbi bitirmiş, 1981-1986-cı illərdə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunda ingilis dili fakültəsində ali təhsil almışdır.

Azad Rəhimov 1986-1987-ci illərdə hərbi xidmət keçdikdən sonra 1987-1990-cı illərdə rayon komsomol təşkilatında katib və birinci katib, 1990-1993-cü illərdə Azərbaycan Gənclər Təşkilatları Komitəsinin sədri vəzifələrində işləmiş, 1993-cü ildən dövlət idarəçiliyinə gələnədək sahibkarlıq fəaliyyəti göstərmişdir.

2006-cı ildə Azərbaycan Respublikasının gənclər və idman naziri təyin olunan Azad Rəhimov ömrünün sonunadək bu vəzifəni icra etmiş, həmin illərdə, eyni zamanda Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti olmuşdur.

Azad Rəhimov gənclər və idman naziri kimi çalışdığı müddət ərzində daim işgüzarlıq və təşkilatçılıq qabiliyyəti nümayiş etdirmişdir. Dərin məsuliyyət hissi və dövlətçilik prinsiplərinə sadiqliyi ona həmkarları arasında böyük hörmət qazandırmışdır. Azərbaycanda dövlət siyasətinin prioritet istiqamətlərindən biri olan idmanın qarşısında dayanan vəzifələrin müvəffəqiyyətlə gerçəkləşdirilməsi üçün qüvvə və bacarığını əsirgəməyən Azad Rəhimov respublikada idmanın maddi-texniki bazasının daha da möhkəmləndirilməsi və kütləviliyinin artırılması, eləcə də idmançılarımızın ən mötəbər yarışlarda iştirakının yüksək səviyyədə təmin edilməsi və ölkəmizin idman şərəfinin beynəlxalq miqyasda layiqincə qorunması işinə töhfələr vermişdir. Azərbaycan gəncliyinin inkişafına dair dövlət proqramları və strategiyalarının hazırlanmasında, habelə gənclərin yaradıcılıq potensialının üzə çıxarılması ilə bağlı tədbirlərin uğurla həyata keçirilməsində onun təqdirəlayiq xidmətləri olmuşdur.

Azad Rəhimovun səmərəli fəaliyyəti yüksək qiymətləndirilmiş və o, müstəqil Azərbaycan Respublikasının ali dövlət mükafatlarından olan "Şöhrət" və 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə təltif edilmişdir.

Tanınmış ictimai-siyasi xadim, bacarıqlı təşkilatçı və səmimi insan Azad Arif oğlu Rəhimovun xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

Allah rəhmət eləsin!

**İlham Əliyev**
**Mehriban Əliyeva**
**Əli Əsədov**
**Sahibə Qafarova**
**Samir Nuriyev**
**Adil Əliyev**
**Eldar Əzizov**
**Yusuf Məmmədəliyev**
**Çingiz Hüseynzadə**
**Ağacan Abıyev**
**Fuad Hacıyev**
**Fərid Cəfərov**
**İlqar Rəhimov**

## Azad Rəhimov II Fəxri Xiyabanda dəfn edilib



***Gənclər və idman naziri Azad Rəhimov II Fəxri Xiyabanda son mənzilə yola salınıb. Mərasimdə dövlət rəsmiləri və Azad Rəhimovun ailə üzvləri iştirak ediblər.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın adından A.Rəhimovun məzarı önünə əklil qoyulub. Həmçinin Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin kollektivi və digər qurumlar adından da əklillər qoyulub.

Bu günlərdə idman ictimaiyyətinin nümayəndələri hissə-hissə Azad Rəhimovun məzarını ziyarət edib, xatirəsini ehtiramla yad edirlər.

Qeyd edək ki, gənclər və idman naziri Azad Rəhimov uzun sürən xəstəlikdən sonra ABŞ-da müalicə olunduğu xəstəxanada 30 aprel 2021-ci il tarixində ömrünün 57-ci ilində vaxtsız vəfat edib.

## Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Azad Rəhimovun vəfatı ilə əlaqədar başsağlığı verib

***Türkiyənin xarici işlər naziri Mövlüd Çavuşoğlu Azərbaycanın gənclər və idman naziri Azad Rəhimovun vəfatı ilə bağlı onun ailəsinə və Azərbaycan xalqına başsağlığı verib.***

Türkiyəli nazir bu barədə öz tvitter səhifəsində yazıb: "Can Azərbaycanın gənclər və idman naziri, qardaşımız Azad Rəhimovun vəfatı xəbərini böyük bir kədər hissi ilə qarşıladım. Mərhuma Allahdan rəhmət, onun ailəsinə və bütün azərbaycanlı qardaşlarımıza səbr və başsağlığı diləyirəm. Məkanı cənnət olsun".




## Beynəlxalq ictimaiyyətin başsağlığı məktublarında canlanan obraz

***Gənclər və idman naziri Azad Rəhimovun vəfatı ilə əlaqədar beynəlxalq ictimai təşkilatların, idman qurumları və nüfuzlu şəxslərin adından məktublar daxil olmaqda, sosial platforma və rəsmi internet səhifələrində başsağlığı mətnləri dərc edilməkdədir.***



Belə mesajlarda, ilk baxışda, bir insanın ölümü ilə bağlı kədər və hüzn notları hakim kəsilir. Lakin Azad müəllimə həsr olunmuş bu məktublarla tanış olduqca onun dünya idman və gənclər, ictimai-siyasi, sosial-mədəni mühitdəki nüfuzu, eyni zamanda, onun insani keyfiyyətlərinin sadalanması xüsusi diqqət çəkir. Deməli, o uzun illər rəhbərlik etdiyi sahədə təkcə Azərbaycanda deyil, ondan kənarda da böyük nüfuz sahibinə çevrilmişdi.

Verilən başsağlığı mətnlərində onun səmimiyyətinin xüsusi qeyd edilməsi bir rəhbər və məmur üçün ən böyük beynəlxalq ictimai qiymətlərdən biri hesab olunmalıdır. Çünki ölkəsinin ictimai maraqlarını qarşılıqlı rəsmi görüşlərdə, müzakirə və tədbirlərin kürsüsündən deyil, eyni zamanda, bir fəal vətəndaş kimi onun ünsiyyətdə şəxsi nümunəsi qarşılıqlı etimad və etibar körpülərinin formalaşmasında xüsusi rol oynayıb. Bu isə gənc ölkənin uğur sütününun təməl daşını təşkil edən amillərdəndir.

⇨ səh. 2

# Gənclər və İdman Nazirliyi kollektivinin nazir Azad Rəhimovun vəfatı ilə bağlı nekroloqu



***Azərbaycan ictimaiyyətinə ağır itki üz vermişdir. Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Arif oğlu Rəhimov 2021-ci il aprelin 30-da, ömrünün 57-ci ilində vəfat etmişdir.***

Azad Rəhimov uzun illər Azərbaycanın milli maraqlarının qorunması üçün bilik və bacarığını əsirgəməyərək, özünün yüksək peşəkarlığı və təşəbbüskarlığı sayəsində dövlət gənclər və idman siyasətinin həyata keçirilməsində, dövlət proqramları və inkişaf konsepsiyalarının hazırlanıb müvəffəqiyyətlə icra edilməsində uğurlu fəaliyyət göstərmişdir.

Gənclər və idman naziri kimi 15 il ərzində ölkə prezidentinin rəhbərliyi ilə respublikamızda gənclərlə iş sahəsində fəaliyyətin gücləndirilməsində, idman infrastrukturunun inkişafında, nüfuzlu beynəlxalq tədbirlərin təşkilində, dünya və Avropa gənclər və idman qurumları ilə əlaqələrin qurulmasında, Azərbaycanın dünyanın idman mərkəzlərindən biri kimi tanınmasında misilsiz xidmətlər göstərmişdir.

Nazir Azad Rəhimov ilk dəfə təşkil olunan və 2015-ci ildə Bakıda keçirilən I Avropa Oyunlarının, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarının, 2019-cu ildə Avropa Yeniyetmələrin Yay Olimpiya Festivalının, Şahmat Olimpiadası, Formula 1 Azərbaycan Qran-Prisi, dünya və qitə çempionatlarının ölkəmizdə yüksək səviyyədə təşkilində müstəsna xidmətlər göstərmişdir.

Azad Rəhimovun xidmətləri dövlət rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmiş, Azərbaycan Respublikası Prezidentinin 29 iyun 2015-ci il tarixli sərəncamı ilə "Şöhrət" ordeninə, 24 iyul 2019-cu il tarixli sərəncamı ilə 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeninə layiq görülmüş, eləcə də 8 oktyabr 2014-cü ildə Azərbaycan Milli Olimpiya Komitəsinin "Olimpiya" ordeni ilə təltif edilmişdir.

Azad Arif oğlu Rəhimovun vaxtsız vəfatından kədərləndiyimizi bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk.

Tanınmış ictimai-siyasi xadim, bacarıqlı təşkilatçı, rəhbərlik etdiyi kollektivin həqiqi lideri, səmimi, xeyirxah və təvazökar insan, gənclərin və idmançıların dostu Azad Rəhimovun əziz xatirəsi Azərbaycan ictimaiyyətinin qəlbində daim yaşayacaqdır.

Allah rəhmət eləsin!

# Azərbaycan Milli Olimpiya Komitəsi və milli idman federasiyalarının nazir Azad Rəhimovla bağlı nekroloqu

***Azərbaycan ictimaiyyətinə ağır itki üz vermişdir. Azərbaycan Respublikasının gənclər və idman naziri, Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti, respublikada gəncliyin və idmanın inkişafına mühüm töhfə vermiş Azad Arif oğlu Rəhimov uzun sürən xəstəlikdən sonra 30 aprel 2021-ci il tarixində ömrünün 57-ci ilində vaxtsız vəfat etmişdir.***

Azərbaycan Respublikası Prezidentinin 7 fevral 2006-cı il tarixli Sərəncamı ilə Azərbaycanın gənclər və idman naziri vəzifəsinə təyin edilmiş Azad Rəhimov nazir olduğu müddət ərzində 2015-ci ildə Avropa Oyunlarının, 2016-cı ildə Ümumdünya Şahmat Olimpiadasının, 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarının, 2017-ci ildə voleybol üzrə qadınların Avropa Çempionatının, 2019-cu ildə UEFA Avropa Liqası Finalının, 2019-cu ildə Avropa Gənclərinin Olimpiya Festivalının, 2020-ci ildə isə UEFA Avropa Çempionatının Azərbaycanda baş tutması üzrə yaradılan Komitələrin üzvü olmuşdur.



Azad Rəhimov gənclər və idman naziri olmaqla yanaşı, son 15 il ərzində Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti kimi ölkəmizdə Olimpiya hərəkatının inkişafına, milli atletlərimizin Olimpiya Oyunlarında və digər nüfuzlu beynəlxalq idman yarışlarında uğurlu iştirakına, bu işin səmərəli şəkildə təşkilinə mühüm töhfə vermiş ictimai xadim idi.

Azad Rəhimov idman sahəsində dövlət siyasətinin həyata keçirilməsində özünəməxsus rol oynamış, idmançılara göstərdiyi qayğı ilə onların əsl dostuna çevrilmiş, ölkəmizin idman ictimaiyyətinin qəlbində özünə böyük rəğbət qazanmış səmimi insan idi.

Azərbaycan Milli Olimpiya Komitəsi və milli idman federasiyaları Azad Rəhimovun vaxtsız vəfatından kədərləndiyini bildirir, onun ailəsinə, yaxınlarına və bütünlükdə respublikanın idman ictimaiyyətinə dərin hüznlə başsağlığı verirlər.

Allah rəhmət eləsin!

# Azərbaycan Respublikasının Gənclər Fondu gənclər və idman naziri Azad Rəhimovun vəfatı ilə əlaqədar başsağlığı verib



***Başsağlığında deyilir:***

"Azərbaycan ictimaiyyətinə ağır itki üz vermişdir. Görkəmli dövlət xadimi, gənclərin dostu Azad Rəhimov uzun sürən ağır xəstəlikdən sonra vəfat etmişdir.

Azad müəllimin Azərbaycanda gənclər siyasətinə verdiyi töhfələr, gənclər təşkilatları və gənclərlə qurduğu səmimi münasibət hər birimizin xatirəsində əbədi yaşayacaqdır.

O, Azərbaycan Respublikasının Gənclər Fondunun yaradılması da daxil olmaqla dövlət başçısının gənclər sahəsində bir çox innovativ layihələrinin formalaşmasında və təşəkkül tapmasında mühüm rol oynamış, hər zaman gənclərə olan səmimiyyəti və qayğıkeşliyi ilə seçilmişdir.

Fəaliyyətimizdə hər zaman Azad müəllimin yaxından dəstəyini hiss etmiş, gənclər tərəfindən irəli sürülən təşəbbüslərin onun tərəfindən necə həssaslıq və diqqətlə dəyərləndirilməsinin dəfələrlə şahidi olmuşuq.

Nazir vəzifəsində çalışdığı bütün dövr ərzində hər bir Azərbaycan gəncinin yanında olmağa, onun qayğılarını bölüşməyə, yaradıcılıq potensialının reallaşdırılmasında gənclərə yardımçı olmağa səy göstərən, bunu yalnız vəzifə deyil, həm də insanlıq borcu hesab edən Azad Rəhimov yaddaşlarda əsil ziyalı, görkəmli dövlət xadimi, xalqına və dövlətinə sonsuz sədaqəti ilə seçilən vətəndaş kimi yaşayacaqdır.

Azərbaycan Gənclər Fondu və Gənclərin İnkişaf və Karyera Mərkəzləri adından Azad müəllimə Allahdan rəhmət, yaxınlarına və ailəsinə səbr diləyirik!".

# Beynəlxalq ictimaiyyətin başsağlığı məktublarında canlanan insan obrazı




*(Əvvəli 1-ci səhifədə)*

XXI əsrin əvvəlindən Azərbaycan idmanında böyük yüksəliş dövrü başlanıb. İdmançılarımızın artan nüfuzu ilə yanaşı, "Odlar yurdu" həm də ən mötəbər tədbirlərin təkilatçısı kimi imicini möhkəmləndirdi. Ölkənin nəinki paytaxtında, hətta regionlarında da idman infrastrukturunun quruculuq işləri geniş vüsət aldı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin mahir diplomat kimi nümunəsi və nüfuzu ilə yanaşı, bu sahədə onun müəyyən etdiyi kursu ardıcıl olaraq həyata keçirəcək rəhbər kadrların, fəalların olması ölkənin uğurlarının möhkəm özülünün təməlidir. Məhz yüksəlişin ilk dövrlərində vaxtilə gənclər sahəsində, xüsusən, güclü idarəçilik məktəbi keçmiş Azad Rəhimovun bu kürsüyə gətirilməsi, dövlət siyasətinin yüksək standartlarının davamlı tətbiqinə peşəkar yanaşmanı müəyyən etdi. Bu gün beynəlxalq ictimaiyyətin başsağlığı mətnlərində məhz bu keyfiyyətlər özünü əyani bürüzə verir.

Türkiyə Cümhuriyyətinin xarici işlər naziri Mövlud Çavuşoğlu Azad Rəhimovun vəfatına münasibət bildirən ilk yüksək çinli məmurlardan oldu. Türkiyənin gənclik və idman naziri Mehmet Kasapoğlu isə iki ölkə arasında əlaqələrdə azərbaycanlı həmkarının roluna diqqət çəkərək, "Azərbaycanın və Türkiyənin başı sağ olsun" deyərək bu xəbəri hər iki ölkənin üzüntüsü adlandırıb. Onu xüsusi qeyd etmək lazımdır ki, qardaş Türkiyənin, sadəcə, yüksək rəhbər şəxsləri, idman və gənclər təşkilatları deyil, hətta əyalətlərin idman qurumları və təşkilatlarının da sosial platforma üzərindən dilekləri, məktubları diqqətçəkəndir. Bu, Azad müəllimin iki ölkə arasında qardaşlıq münasibətlərinə irili-kiçikli fərq qoymadan münasibətinin nəticəsidir. Türkiyəli gənclik və idman fəalları, idmançıların da mesajlarında onun şəxsiyyətinə hörmət xüsusi yer tutur.

Türk dünyasının çeşidli ölkələrindən, habelə Türk Şurası Baş Katibliyinin dərin hörmət və ehtiram ifadəsi ilə Bağdad Amreyev Azad Rəhimovun çoxsaylı türkdilli tədbirlərə ən fəal qatılanlardan biri kimi bu tədbirlərin təşkilatçılığı ilə yanaşı, onun şəxsi nümunəsini xüsusi qeyd edərək, səylərini əsirgəməməsini və bu xidmətlərin heç vaxt unudulmayacağını vurğulayır.

Qitənin olimpiya ailəsinin dərin hüznlə başsağlığı diləklərini çatdıran Avropa Olimpiya Komitəsi başda olmaqla, dünyanın aparıcı idman təşkilatları da Azad Rəhimovun vəfatına kədərlərini bildirir və başsağlığı diləklərini göndərirlər. Dünya mediasında və davamlı məktublarda onun bir təkilatçı kimi, ölkəsinin maraqlarının ən yaxşı cəhətdən təqdim edən şəxs kimi göstərilməsi ön plana çıxır. Xüsusən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın başçılığı ilə Birinci Avropa Oyunlarının Təşkilat Komitəsinin fəaliyyəti, tarixin olimpiya oyunları səviyyəsində ən nümunəvi yarışlarının təşkilatçılığındakı rolu, hətta beynəlxalq təzyiqlərə, ölkə imicinə qarşı süni şişirdilən münasibətlərə rəğmən onun cəsarətli, iradəli duruşu bir sıra xatirələrdə xüsusi qeyd olunur.




*(Ardı 4-cü səhifədə)*

# Azad Rəhimovun yolu...



***2006-cı ilin fevralı idi. Azad Rəhimov yenicə nazir təyin edilmişdi. Bu o demək idi ki, birlikdə çalışacaqdıq, mənim yeni rəhbərim olacaqdı. Buna görə də tanışlıq üçün qəbuluna getdim. Otağına daxil olanda məni girişdə qarşıladı, görüşdük. Yer göstərib, özü də əyləşəndən sonra özünəməxsus təbəssüm və səmimi bir tərzdə söhbətə başladı. Onunla ilk görüşümdə səmimiyyəti, pozitivliyi məndə yüksək təəssürat oyatdı.***

Sonralar tədbirlərdə tez-tez görüşürdük. Sözü olanda birbaşa zəng edər, otağına çağırıb, tapşırıqlarını verərdi. Birlikdə uzun yola da çıxdıq, tədbirlərdə də iştirak etdik. Dəfələrlə şahidi olmuşam, beynəlxalq aləmdə tanınmış, nüfuzlu idman funksionerləri onunla necə səmimi görüşür, hörmətlə yanaşırdılar.



Azad Rəhimov çox vətənpərvər insan idi. Rio Olimpiadasında idmançılarımızın birbirinin ardınca yarımfinala, finala yüksəlib, son anda qızıl medalı əldən verməri onun çox məyus etmişdi və böyük həyəcanla Azərbaycanın himninin səslənməsini, bayrağını yüksəkdə dalğalanmasını gözləyirdi. Olimpiadanın sonuna yaxın, taekvondoçumuzun qızıl medal qazandığı anda bütün nümayəndə heyətinin diqqəti Azad müəllimə yönəldi. Gözləri dolmuşdu, sevincindən ağlayırdı.

Rəhbərlik etdiyi kollektivin hər bir üzvü onun üçün dogma və əziz idi. İdmançıların və gənclərin yaxın dostu, sevimlisi idi. Onların inkişafı üçün əlindən gələni edirdi.

7-8 il bundan əvvəl təşkilati işlərini mənə həvalə etdiyi dünya idman jurnalistlərinin Bakı konqresinin uğurla təşkilindən çox razı qalmışdı.



Tədbirin sonuncu günü bağlanış mərasimində çıxış edərkən məni səhnəyə dəvət edib bütün xarici qonaqların qarşısında xüsusi təşəkkür etdi.

Bir neçə gün sonra isə məni yanına çağırıb həmişəki mehribanlıqla hal-əhval tutduqdan sonra ”Sənin təşkilatçılıq bacarığını gördüm. Bu il babam Sadıq Rəhimovun 100 illiyidir, istəyirəm yubileyin təşkilati işləri ilə sən məşğul olasan”, - dedi. Məmnuniyyətlə razılıq verdim və Azad müəllimin maliyyə vəsaiti ilə 2014-cü ildə Sadıq Rəhimovun, 2019-cu ildə isə Əhməd bəy Ağaoğlunun yubileylərini təşkil etdik. S.Rəhimov Azad müəllimin öz babası, Ə.Ağaoğlu isə anası Elmira xanımın babasının qardaşı idi. Hər iki şəxsiyyət Azərbaycan dövlətçilik tarixində mühüm iz buraxmış, vətənpərvər insanlar olublar. Belə bir soykökünə malik olan Azad Rəhimovun dövlətə sədaqəti, vətənpərvərliyi və humanistliyi təsadüfi deyildi.



Hələ sovet ideologiyasının hökm sürdüyü 60-cı illərdə erməni keşişi Qarabağ iddiasına görə söyüb otağından qovan - Sadıq Rəhimovun əsl davamçısı idi, Azad Rəhimov.

İdmanı, idmançıları sevirdi. Buna görə də idman ictimaiyyətinin rəğbətini qazanmışdı. Gənc ruhlu insan idi və gəncliyin sevimlisinə çevrilmişdi. Vəfatından sonra onun itkisini minlərlə insanın ağrı ilə qarşılaması, sosial şəbəkələrdə onunla bağlı kədərli notlara köklənmiş təəssürat və xatirələrin paylaşılması Azad müəllimin hər kəsin qəlbini fəth etdiyini göstərir.

”My way” (mənim yolum) ən sevdiyi və özünün də gözəl oxuduğu mahnı idi. Son günlər bu mahnı Azad Rəhimovun ifasında paylaşılır və dinlənilir. Mahnının sözlərinə diqqətlə qulaq asdıqda, həqiqətən də həmin sözlərin Azad Rəhimovun keçdiyi yolu ifadə etdiyini görmək olur. Deməli, Azad müəllimin bu mahnını bu qədər sevməsi və dəfələrlə ifa etməsi təsadüf ola bilməz. Öz həyatını bu mahnıda görüb, yaşayıb və həyatının mahnısını seçib, sevib.

”My way” mahnısında deyildiyi kimi:

- *“Və indi, son yaxındır və beləliklə mən son pərdə ilə üzləşirəm, dostum, açıq deyirəm, vəziyyətimi açıqlayacam...*

*Həyatım taleyin zərbələrini ləyaqətlə aldığımın sübutudur. Bəli, hər şeyi öz yolumla etdim”*

Bəli, Azad Rəhimov hər şeyi öz yolu ilə etdi! Uğurla, qürurla və şərəflə! Bu onun yolu idi. Gəldi, Vətənə, elinə, obasına sədaqəti, məhəbbəti



ilə yaşadı, yaratdı. Amma çox sevdiyi həyatı erkən tərk etdi.

Son illər səhhətində problemlər var idi, lakin bunu hər kəs bilmirdi. Çünki, Azad Rəhimov öz problemini kiməsə danışan insan deyildi. O daha çox başqalarının problemlərini həll etmək üçün gəlmişdi bu dünyaya.

Möcüzə ola biləcəyinə inanmasaq da, aprelin son saatlarında gələn xəbər son ümidimizi öldürdü. İnanmaq



çətindir, Azad Rəhimov kimi bir insan həyatda yoxdur.

Bütün işlərin öhdəsindən gələ bilən, bacarıqlı rəhbər, səriştəli təşkilatçı, vətənpərvər şəxsiyyət. Vəzifəsindən, kimliyindən asılı olmayaraq,



hər kəsə hörmətlə yanaşan, gülərüz, səmimi, mehriban, pozitiv, müsbət aurası olan insan idi. Bir az da şən zarafatları var idi. Tabeliyində olanlara nazir, rəhbər olmaqdan çox dost-qardaş doğmalığı ilə davranan şəxsiyyət idi.

Axırıncı dəfə noyabrın 13-də görüşmüşdük. İş otağında çəkilişdən sonra sağollaşdıq və dedi ki, müayinəyə gedəcəyəm, nə sözün olsa zəng edərsən və ya mesaj yazarsan, cavab verərəm. Nə zaman qayıdacağı ilə bağlı suallma isə dəqiq cavab deməsə də, tez qayıdacağını bildirdi. Amma...

Böyük və kövrək ürək sahibi Azad müəllim bundan sonra qəlbimizdə yaşayacaq.

İnanmaq istəmirəm, inana bilmirəm, inanmağım da gəlmir, doğrudanmı bizim Azad müəllim daha yoxdur? O İNSANI itirdik? Təəssüf, çox təəssüf! Onun haqqında keçmiş zamanda-danışmaq nə qədər ağır olsa da acı reallıq budur. Həyat qısa, dünya isə fanidir. Babası Sadıq Rəhimov da, atası Arif Rəhimov da qısa ömür yaşamışdılar. Azad müəllim də bu alın yazısını dəyişə bilmədi. Pozitiv, enerjili və həyat dolu bu böyük insan gedişi ilə onu tanıyan hər kəsi məyus etdi...

***Qabil Mehdiyev***
***Əməkdar jurnalist***

# Beynəlxalq ictimaiyyətin başsağlığı məktublarında canlanan insan obrazı




*(Əvvəli 2-ci səhifədə)*

Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti Endryu Parsonz məktubunda Azad Rəhimovu *"böyük şəxsiyyət və paralimpiyaçıların dostu"* adlandırması, Avropa Şahmat İttifaqının prezidenti Zurab Azmayparaşvilinin *"Azad Rəhimov təkcə gənclər və idman naziri deyildi, o, bir azarkeş və hər bir gənc insanın və idmançının qayğıkeş atası, dəstəkçisi və dostu idi"*, - deyərək ötən illərdə keçirilən mötəbər şahmat tədbirlərindən xatirəsini paylaşaraq rəsmidən çox, dost, yoldaş notlarının hakim kəsildiyi məktubu hüznlə yanaşı, Azərbaycanda gənclər və idman siyasətinin həyata keçirilməsinə rəhbərlik etmiş insana görə qürur hissi ilə təskinlik gətirir. Elə şahmat aləminin daha bir tanınmış siması, Avropa Şahmat İttifaqının prezidenti də olmuş Silvio Danailov da "Böyük insan və əziz dost" adlandıraraq dost itkisinin ağrıacısını dilə gətirir.

FİDE prezidenti Arkadi Dvorkoviçin məktubu isə bu fikirləri tamamlayır: *"O, özünəməxsus dəst-xəttin, fitri istedadın, parlaq peşəkarlığın, yüksək alicənablığın rəmzi və tərənnümçüsü olan müdrik insan kimi qəlbimizdə daim qalacaq"*.

*"Yalnız Azərbaycanda deyil, bütün müsəlman dünyasında və onun xaricində də dərin bir miras qoydu. Onun liderliyi və gəncliyin inkişafına verdiyi töhfələr dərin heyranlıq və ehtiramla xatirələrdə əbədi qalacaq"*, - deyərək başsağlığı məktubu ünvanlayan İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun prezidenti Taha Ayhanın sözləri, habelə İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi Məhəmməd Əl-Qərnasın imzası ilə daxil olmuş məktubda qurumun prezidenti şahzadə Əbdüləziz bin Türki Əl-Feysəl Əl Səud, eləcə də İcraiyyə komitəsi və baş katibliyin başsağlığı diləkləri ilə yanaşı, Azad Rəhimovun "təkcə Azərbaycanın deyil, bütün İslam dünyası gəncliyinin və idmanın inkişafına yaxından və real dəstəyi, səyləri" qeyd olunur. Bütün bunlar Azad Rəhimovun şaxəli fəaliyyətinə verilən daha bir səmimi qiymət olaraq, müsəlman ölkələrinin ictimai təşkilatları ilə yanaşı, dünyanın fərqli yerlərindən fəalların başsağlığı ismarıclarında bir daha əyani təsdiqini tapır.



AİBA prezidenti Umar Kremlev məktubunda *"Əminəm ki, cənab Azad Rəhimovun böyük əməyi bundan sonra da davam etdirilməklə, xidmətləri daim xatırlanacaq"* deyə qeyd edir. Onun avropalı həmkarı, Avropa Boks Konfederasiyasının prezidenti Franko Falçinelli isə Azad Rəhimovun *"uğurları və parlaq layihələri ilə yaddaşlarda qalacağını"* qeyd edərək, başsağlığı verib.

Bütün məktubları vərəqlədikcə, onun nümunəvi vətəndaş, əsl olimpiya prinsiplərinə uyğun humanizmi, ideallara sədaqəti gələcək nəsillərə qoyduğu böyük irsin etirafı kimi səslənir. Azad Rəhimovun əziz xatirəsinə dünya idman və gənclər hərəkatının hörmət və ehtiram diləklərini çatdıran məktub və ismarıcların bir qismini sadalayaraq, onun qoyduğu irsin bir nümunəsi kimi daim xatırlanacağına əminliyimizi ifadə edir və Allahdan ona rəhmət diləyirik.

Bu xüsusda tanınmış xadimlərdən Natali Qule (Fransa senatoru), Pirs Okalliqan ("Bakı-2015" Birinci Avropa Oyunlarının idman direktoru), Çunqvon Çu (Dünya Taekvondo Federasiyasının prezidenti), Maurisio Süleyman (WBC prezidenti), Birol Aydın (Türkiyə Özəl İdmançılar İdman Federasiyası), Məhməd Baykan (Türkiyə Gənclik və İdman Nazirliyi İdman xidmətləri baş müdiri), Səlim Qayıcı (Türkiyə Kikboks Federasiyasının sədri), Yusif Qaradağ (Beynəlxalq yardım könüllüsü), Həmzə Yerliqaya (Türkiyənin yunan-Roma güləşi üzrə olimpiya, dünya və Avropa çempionu), Osman Aşkın Bak (Türkiyənin keçmiş gənclik və idman naziri), habelə qurum və təşkilatlardan BMT-nin Azərbaycan nümayəndəliyi, Türkiyə Cüdo Federasiyası, Diyarbəkir Xarici İşlər Başqanlığı, Elazığ Gənclik və İdman Əyalət Müdirliyi, Dünya Etnospor Konfederasiyası və başqaları Azad Rəhimovun vəfatı ilə əlaqədar başsağlığı veriblər.

Məkanı cənnət olsun!

**BATI YAR**



# Allah rəhmət eləsin!

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının kollektivi Azərbaycan Respublikasının gənclər və idman naziri
**Azad Rəhimovun**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin kollektivi Azərbaycan Respublikasının gənclər və idman naziri
**Azad Rəhimovun**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan İdman Jurnalistləri Federasiyası Azərbaycan Respublikasının gənclər və idman naziri
**Azad Rəhimovun**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Respublika Olimpiya İdman Litseyinin kollektivi Azərbaycan Respublikasının gənclər və idman naziri
**Azad Rəhimovun**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Gənclər və İdman Nazirliyinin kollektivi nazir müavini İsmayıl İsmayılova əzizi
**Zeynəb Hüseynovanın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# Akrobatika gimnastlarımız Bolqarıstanda gümüş medal qazanıblar




***Bolqarıstanın paytaxtı Sofiyada akrobatika gimnastikası üzrə dünya kuboku və kubok çərçivəsində beynəlxalq turnir keçirilib.***

Yarışda ölkəmizi Murad Rəfiyev və Daniel Abbasovdan ibarət kişi cütlüyü, Ağasif Rəhimov və Raziyə Seyidlidən ibarət qarışıq cütlük və Leyla Bəşirova, Mənsumə Məmmədzadə və Nəzrin Fərmanovadan ibarət qadın qrupu təmsil edib.

Kubok çərçivəsində keçirilmiş beynəlxalq turnirdə 13-19 yaş kateqoriyasında çıxış edən qadın qrupumuz qarışıq hərəkətlərdə fəxri kürsünün ikinci pilləsinə yüksəlib.

Dünya kubokunda gücünü sınayan Ağasif Rəhimov və Raziyə Seyidli cütlüyü isə finalda 8-ci olub.

# Azərbaycanın cüdo üzrə iki məşqçisi Yaponiyada ordenlə təltif olunub

***Azərbaycanın cüdo üzrə iki məşqçisi Yaponiyanın "2021-ci il Yaz Mövsümü Əlahəzrət İmperator" ordeni ilə təltif olunub.***



Bu barədə "Gündoğar ölkə" hökumətinin aprelin 29-da qəbul edilmiş qərarında bildirilir. Qeyd edilir ki, Yaponiya hökumətinin qərarına əsasən, 117 əcnəbi və 4 mindən çox Yaponiya vətəndaşı mükafata layiq görülənlər siyahısında yer alıb.

Təltif olunanlar arasında Azərbaycanın Kanokan-TT Peşəkar Cüdo İdman Klubunun prezidenti Tərlan Həsənov və paralimpiya cüdosu üzrə Azərbaycan yığma komandasının keçmiş baş məşqçisi Əhməddin Rəcəblinin də adları var.

Bildirilir ki, T.Həsənov Azərbaycanın ilk cüdoçularından biri olub və 1972-ci ildən bəri bu sahə üzrə məşqçi kimi çalışıb. Onun tərəfindən 100-dən çox Olimpiya idmançısı daxil olmaqla, çoxsaylı istedadlı cüdoçular yetişdirilib. Eyni zamanda, T.Həsənov beynəlxalq dərəcəli üç cüdo hakimi və çoxsaylı cüdo məşqçisi yetişdirib. Cüdo üzrə məşqçi olaraq ən uzun müddət fəaliyyət göstərən şəxslərdən biri olaraq idmanın bu növünün inkişafına əvəzsiz töhfələr verib.

Yüksək mükafatla təltif edilən Ə.Rəcəbli də Azərbaycanda cüdonun yayılmasının ilk günlərindən fəaliyyət göstərib və məşqçi kimi 500-dən çox idmançı yetişdirib. Paralimpiya cüdosu üzrə ikiqat qızıl medal sahibi İlham Zəkiyevin 2004-cü il Afinada baş tutmuş XII Yay Paralimpiya Oyunları və 2008-ci il Pekində keçirilmiş Yay Paralimpiya Oyunlarında 100 kiloqram çəki dərəcəsində qızıl medal qazanmasında əvəzsiz rol oynayıb. Bununla da Azərbaycanda paralimpiya cüdosunun yayılmasına böyük təsir göstərərək, ölkədə cüdo və paracüdonun inkişafına əvəzsiz töhfələr verib.

Qeyd edilir ki, veteran idmançıların hər ikisi Gümüş Şüalı Gündoğar Ordeni (The Order of the Rising Sun, Silver Rising Sun) ilə təltif olunublar.

Həmçinin bildirilir ki, ordenlərin və bunlarla bağlı diplomların sahiblərin təqdim olunması ilə əlaqədar Yaponiyanın Azərbaycandakı səfiri tərəfindən təltifetmə mərasiminin keçirilməsi planlaşdırılır.



# Bakı paralimpiyaçıların Qran-Pri yarışına hazırlaşır

## AMPK-nın prezidenti IBSA-nın idman direktoru ilə görüşüb

***Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) prezidenti İlqar Rəhimov və Beynəlxalq Görmə Məhdudiyyətli İdmançılar Assosiasiyasının (IBSA) idman direktoru Yanoş Tardoş arasında görüş olub.***

AMPK-da keçirilən görüşdə Bakıda təşkil olunacaq paracüdo üzrə Qran-Pri yarışlarına hazırlıq barədə müzakirələr aparılıb.

Komitə prezidenti İ.Rəhimov bildirib ki, belə mötəbər tədbirin yenidən Bakıda baş tutması sevindirici haldır. Qran-Prinin yüksək səviyyədə keçirilməsi üçün təşkilat komitəsi yaradılıb. Hazırlıq işləri yaxın günlərdə tam yekunlaşacaq.

İ.Rəhimov turnirin ölkəmizdə tətbiq edilən mövcud karantin qaydalarına, sanitar-epidemioloji tələblərə uyğun olaraq və tamaşaçıların iştirakı olmadan keçiriləcəyini vurğulayıb.

Görüşdə iştirak edən Komitənin baş katibi Kamal Məmmədov yarışa gələcək qonaqların məskunlaşacağı yer, Qran-Prinin keçiriləcəyi Heydər Əliyev adına İdman Sarayı, eləcə də idmançılar üçün təşkil olunacaq tibbi təsnifata olan hazırlıq barədə məlumat verib.

IBSA-nın idman direktoru Y.Tardoş komitə rəhbərliyinə dəvət üçün təşəkkürünü bildirib. O, AMPK-nın IBSA ilə əməkdaşlığını yüksək qiymətləndirərək deyib ki, Qran-Prinin yüksək səviyyədə təşkil olunması üçün təşkilat komitəsinə öz dəstəyini verəcək.

Daha sonra tərəflər gələcək əməkdaşlıq ilə bağlı bir sıra məsələləri müzakirə ediblər.

Qeyd edək ki, mayın 25-26-da



Bakıda keçiriləcək Qran-Pri "Tokio-2020" XVI Yay Paralimpiya Oyunlarına reytinq xalı qazandırır.

AMPK prezidenti İlqar Rəhimov yarışa hazırlıq barədə ətraflı məlumat verib. O bildirib ki, pandemiya şərtlərinə uyğun azarkeşsiz keçiriləcək yarışda çox ciddi karantin tədbirləri olacaq. Gələn bütün idmançılar Azərbaycana daxil olduqları ilk saatdan PCR testindən keçəcəklər və öz otaqlarında bir günlük karantinə alınacaqlar. Testin cavabına kimi çölə çıxa bilməyəcəklər. Hərəkəti məhdudlaşdırmaq üçün otaqlarında qidalanmaları təşkil olunacaq. Testin cavablarından sonra idmançılar yarışdan əvvəl məşqlərə başlaya bilərlər. Yarışın keçiriləcəyi Heydər Əliyev adına İdman Kompleksinə də koronavirus testindən keçənlər və akkreditasiyası olanlar daxil ola biləcəklər. Girişdə xüsusi dezinfeksiya avadanlığı quraşdırılacaq. Hərəkəti məhdudlaşdırmaq üçün orada iki gün idmançıların qidalanması təşkil ediləcək. Xaricdən gələn hakimlər və qonaqların hamısı testən keçdikdən sonra karantinə alınacaqlar. Ardınca isə yarışa buraxılacaqlar. Bir sözlə, Beynəlxalq Cüdo Federasiyasının pandemiya şəraitində təşkil etdiyi yarışlarda hansı qaydalar olubsa, burada da həmin qaydalara əməl ediləcək.

AMPK rəhbəri bildirib ki, yarış üçün idmançıların göz təsnifatından keçirilməsi məqsədi ilə Bakıya beynəlxalq həkimlər gələcəklər. Həkimlər kiməsə yarışla bağlı IBSA qaydalarına uyğun rəy verməsələr, həmin idmançı Qran-Priyə buraxılmayacaq. Mütləq hamısı öz arayışlarını almalıdır ki, gözdən əlil olduqları üçün yarışa uyğundurlar.

Bakı Qran-Prisində 39 ökə artıq öz iştirakını təsdiq edib. İdmançılar, məşqçilər və nümayəndə heyətləri ilə birikdə 400-dək iştirakçı olacaq. Azərbaycan milli komandası 19 nəfərdən ibarət olacaq. Onlardan 3-ü məşqçi, 16-sı idmançıdır. Komandamız ev sahibi olduğu üçün hər çəkidə iki idmançı ilə təmsil oluna bilərdi. Amma sonuncu danışıqlara və pandemiya məsələlərinə görə Qran-Pridə ancaq titullu idmançılar çıxış edə bilərlər. İstər Azərbaycandan, istər digər ölkələrdən, cüdoçu reytinqdə aşağı pillədədirsə və onun Tokioda yarışmaq üçün şansı yoxdursa, onlar ixtisar olunub. Azərbaycan yığması yalnız reytinqli idmançılarla yarışda təmsil olunacaq. Kişilər 7, qadınlar isə 6 çəki dərəcəsində təmsil olunur. Yalnız kişilərin mübarizəsində 66 kq-da bizdə iki idmançı olacaq. Çünki ikisi də reytinqdə öndədirlər, 4-5-ci pillələrdə qərarlaşıblar. Qadınlarda isə 52 kq və 57 kq-da iki nəfər çıxış edəcək. Onlar da reytinqdə üst pillədədirlər.

İ.Rəhimovun bildirdiyinə görə, 13 idmançımız artıq reytinqə əsasən lisenziyanı təmin etməyə çox yaxındır. Bugünkü proqnoza görə paracüdo komandamız hər çəkidə Yaponiyanın paytaxtındakı Oyunlarda təmsil olunacaq.

# Gimnastlarımız Avropa çempionatında 3 medal qazanıblar




***Aprelin 29-dan mayın 2-dək Rusiyanın Soçi şəhərində batut gimnastikası, ikili mini-batut və tamblinq üzrə Avropa Çempionatı keçirilib. Yarışda Azərbaycan yığması 1 gümüş və 2 bürünc medal qazanıb.***

Belə ki, çempionatın ilk medalı gənclər arasında yarışan tamblinqçilərimizdən gəlib. Hüseyn Əsədullayev, Tofiq Əliyev, Adil Hacızadə və Bilal Qurbanovdan ibarət komandamız fəxri kürsünün üçüncü pilləsinə yüksəlib.

Növbəti medal son dünya yaş qrupları yarışlarının gümüş medalçıları Hüseyn Abbasov və Mahsud Mahsudov sinxron cütlüyündən gəlib. Onlar qitə birinciliyində də gümüş medala sahib olublar. Bu yarışda 13-17 yaşlılar arasında çıxış etmiş 13 yaşlı Hüseyn və Maqsud özlərindən daha böyük və təcrübəli gimnastlarla mübarizə apararaq fəxri kürsüdə yer alıblar.

Çempionatın son medalı isə təcrübəli tamlinqçimiz Mixail Malkindən gəlib. Uzun müddətdən bəri irimiqyaslı beynəlxalq yarışlarda zədə səbəbindən iştirak etməyən təmsilçimiz, gərgin idman mübarizəsi şəraitində keçən final mərhələsində bürünc medal qazanmağa nail olub.

Fərdi batut yarışlarında yeganə qadın gimnastımız Selcan Maqsudova da qitə birinciliyinin finalına vəsiqə qazanıb. Həlledici final mərhələsində gimnastımız 6-cı olub. İlk dəfədir ki, Azərbaycanın qadın təmsilçisi Avropa çempionatının böyüklər arasında ən güclü 8 gimnastı arasında mübarizə aparıb.

Bu Avropa çempionatı Azərbaycan gimnastikası üçün "ilk"lərlə tarixə yazılıb. Belə ki, həm tamblinqçilərimizin komanda hesabındakı bürüncü, həm də sinxron cütlüyümüzün layiq görüldüyü gümüş medal gənclər yaş qrupunda gimnastlarımızın Avropa çempionatından ölkəmizə qazandırdığı ilk medallardır. Eləcə də, gimnastımız Selcanın çempionatın finalında iştirakı gimnastikadakı nailiyyətlərimiz sırasında bir ilkdir.

# Tokio Olimpiadasına lisenziya qazanan idmançılara AMADA-dan dəstək




"Tokio-2020" Yay Olimpiya Oyunlarına gedəcək idmançılar üçün vacib olan "ADEL for Tokyo 2020 Olympics" platforması Azərbaycan dilində istifadəyə verilib. Ümumdünya Antidopinq Agentliyinin tədris platforması olan ADEL tərəfindən hazırlanan bu proqram "Tokio-2020" Yay Olimpiya Oyunlarına lisenziya qazanmış idmançılar və onları müşayiət edəcək köməkçi heyət (məşqçi, həkim və s.) üçün nəzərdə tutulmuş onlayn kursdur.

Kursun məqsədi Olimpiya Oyunlarında dopinq nəzarəti ilə bağlı ən vacib məlumatları onlara çatdırmaqdır. Onlayn kursdan keçənlər "Tokio-2020" Yay Olimpiya Oyunlarında antidopinq qaydaları, dopinq nəzarəti prosesi, habelə terapevtik istifadə üçün icazə və dərmanların necə yoxlanılması haqqında məlumat əldə edəcəklər. Bu kurs vasitəsilə idmançılar həm də hüquq və vəzifələri, oyunlar zamanı onların üzərində yurisdiksiyası olan təşkilatlar haqqında biliklərini təkmilləşdirmiş olacaqlar.




İnteraktiv onlayn təhsil kursu bir neçə mərhələdən ibarətdir. Hər mərhələdə iştirakçıya vacib biliklər verilir və yekunda biliklərin yoxlanılması üçün suallar olur. Ümumi sualların 80 faizindən çoxunu düzgün cavablandıran şəxslər kursu müvəffəqiyyətlə tamamlamış olur və elektron sertifikat əldə edirlər.

Bu platforma idmançıların "Tokio-2020" Olimpiya Oyunlarına hazırlığının ayrılmaz hissəsidir, idmançıların və onların köməkçi heyətinin kurslardan keçməsi vacibdir. Bunun Tokioya yollanacaq idmançılar üçün əhəmiyyətini nəzərə alaraq AMADA idmançıların və onların köməkçi heyətinin kurslardan keçməsi üçün bütün lazımi dəstəyi göstərir. Qadın güləşçimiz səkkizqat Avropa çempionu Mariya Stadnik kursu keçərək sertifikatını alan ilk idmançı olub.

# Azərbaycanda ilk dəfə aerobika gimnastikası üzrə dünya yaş qrupları yarışları təşkil olunacaq

***2021-ci ilin mayında Azərbaycan Gimnastika Federasiyası (AGF) ilk dəfə olaraq aerobika gimnastikası üzrə dünya yaş qrupları yarışlarını təşkil edəcək.***




Sayca 9-cu olan bu yarışlar mayın 21-23-də Milli Gimnastika Arenasında baş tutacaq.

Turnirdə 12-14 və 15-17 yaş qruplarında gimnastlar birincilik uğrunda mübarizə aparacaqlar. Hər iki yaş qrupunda gimnastlar fərdi qadın və kişi, qarışıq cütlük, üçlük, qrup proqramları üzrə təsnifat və final mərhələlərində çıxış edəcəklər. Bununla yanaşı, 15-17 yaşlı idmançılar aero dans proqramında da öz qüvvələrini sınayacaqlar.



# AİJF prezidenti tələbə-jurnalistlərlə görüşüb

***AİJF prezidenti, Əməkdar jurnalist Qabil Mehdiyev federasiyada təcrübə keçmiş, Bakı Dövlət Universitetinin bir qrup tələbəsi ilə görüşüb.***

BDU-nun Jurnalistika fakültəsinin 4-cü kursunda təhsil alan bu tələbələr AİJF-nin beynəlxalq əlaqələr və təhsil komissiyasında təcrübə prosesinə cəlb olunublar.

Görüş zamanı AİJF rəhbəri onlara uğurlar arzulayıb. O, idman mediasına marağı olan tələbələrin gələcəkdə bu sahədə çalışacaqlarına və peşəkar jurnalistlər kimi yetişəcəklərinə ümidvar olduğunu bildirib.

Sonda tələbə-jurnalistlərə 20 günlük təcrübənin yekununa uyğun olaraq xasiyyətnamələr və Azərbaycan idman mətbuatının banilərindən sayılan Mirpaşa Miriyevin həyatından bəhs edən "Redaktor" kitabı təqdim edilib.

# Sərbəst güləşçilərimiz Yakutskda 1 qızıl və 1 gümüş medal qazanıblar

***Gənc sərbəst güləşçilər arasında Rusiyada keçirilən ənənəvi yarışın ilk günündə finalçılar müəyyənləşib.***



Murad Haqverdiyev iki Rusiya güləşçisinə qalib gələrək dörddəbir finala yüksəlib. Ancaq yarımfinala gedən yolda digər yerli idmançıya məğlub olub.

Mübarizəyə dörddəbir finaldan qoşulan Sabir Cəfərov iki rəqibi üzərində inamlı qələbə qazanaraq adını finala yazdırıb.

Cəbrayıl Hacıyev ilk iki mərhələdə Rusiya təmsilçilərinə heç bir şans tanımayıb. Yarımfinalda Qırğızıstan idmançısından da güclü olan Hacıyev finala vəsiqə qazanıb.

Final qarşılaşmaları mayın 1-də keçirilib. Güləşçilərimiz finalda Rusiya idmançılarıyla qarşılaşıb. Həlledici görüşdə rəqibinə uduzan Sabir Cəfərov turniri gümüş medalla başa vurub. Cəbrayıl Hacıyev isə son görüşdə də qələbə qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Beləliklə, 3 güləşçi ilə xatirə turnirinə qatılan komandamız yarışı 1 qızıl və 1 gümüş medalla başa vurub.

# Karate1 Premyer Liqa turnirindən 2 medal

***Portuqaliyanın paytaxtı Lissabonda Karate1 Premyer Liqa turniri keçirilib.***




Mötəbər yarışda Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirovun rəhbərliyi altında 15 idmançıdan ibarət heyət iştirak edib. Belə ki, karateçilərdən Firdovsi Fərzəliyev (60 kq), Rafiz Həsənov, Tural Ağalarzadə (hər ikisi 67 kq), Ayxan Mamayev, Pənah Abdullayev, Turqut Həsənov (hər üçü 84 kq), Asiman Qurbanlı (84 kiloqramdan yuxarı), həmçinin, Nuranə Əliyeva (50 kq), İlahə Qasımova (55 kq), İrina Zaretska (68 kq) və Fəridə Əliyeva (68 kiloqramdan yuxarı) tatamiyə çıxıblar. Kata yarışlarında isə Roman Heydərov (fərdi) və Rövşən Əliyev, Tural Balcanlı və İsmayıl Quliyevdən ibarət heyət (komanda) iştirak edib.

Milli komandanı kumite üzrə kişilərin baş məşqçisi Qurban Tağıyev, böyük məşqçi Şahin Xudaverdiyev, eləcə də qadınların baş məşqçisi Denis Morozov və kata üzə baş məşqçi Vahid Ayvazov müşayiət ediblər.

Təmsilçilərimizdən fərdi yarışlarda Asiman Qurbanlı (84 kiloqramdan yuxarı) uğurla çıxış edib. Belə ki, finala qədər Rumıniya, İsrail, Ukrayna və Almaniyadan olan rəqiblərini məğlub edən karateçimiz həlledici mərhələdə Gürcüstan idmançısı Qoqita Arkania ilə qarşılaşıb. Onun Gürcüstan təmsilçisi ilə final görüşü 3:3 hesablı heç-heçə ilə yekunlaşsa da, hakimlərin qərarı ilə qələbə rəqibinə verilib. Bununla da karateçimiz gümüş medalla kifayətlənib.

Heyətində Rövşən Əliyev, Tural Balcanlı, İsmayıl Quliyevin yer aldığı kata komandamız isə bürünc medal qazanıb. Millimiz həlledici mərhələdə Misir yığmasına qalib gəlir.

Nüfuzlu turnir idmançılara Tokio Olimpiadasında iştirak etmək üçün xüsusi reytinq xalları da qazandırıb.

Premyer Liqanı idarə edən hakimlər arasında beynəlxalq hakimlərimiz Cahangir Babayev və Vüqar Kərimov da yer alıblar.

# Məmmədyarov "New In Chess Classic"də 3-cü oldu

***Dünya çempionu Maqnus Karlsenin təşkil etdiyi "Champions Chess Tour" onlayn şahmat seriyasında "New In Chess Classic" turnirinə yekun vurulub. 16 şahmatçının dairəvi sistem üzrə mübarizə apardığı ilkin mərhələni norveçli şahmatçı Karlsen 10,5 xalla ilk pillədə başa vurub.***



ABŞ təmsilçisi Hikaru Nakamura ilə Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov 9,5 xalla 2-3-cü yerləri bölüşdürüblər. Qrup mərhələsindən pley-offa adlayan 8 şahmatçı sırasında daha bir Azərbaycan nümayəndəsi Teymur Rəcəbov da olub. Teymur 8,5 xalla 6-8-ci yerləri paylaşanlar sırasında yer alıb.

Teymur Rəcəbov 1/4 finalın 2 matçlıq mübarizəsinin ilk matçında dünya çempionu Maqnus Karlsenlə 4 partiyanın hamısını heç-heçə başa vurub. 2-ci matçdakı 4 partiyanın 2-cisində qələbə qazanan Karlsen, digər partiyaların bərabərliyi şəraitində ümumi rəqabətdə 2:2, 2,5:1,5 hesabı ilə qalib gələrək növbəti mərhələyə adlayan tərəf olub.

FİDE-ni təmsil edən gənc iranlı şahmatçı Əlirza Firuzcayla ilk matçın birinci və 4-cü partiyalarında qələbə qazanan Şəhriyar Məmmədyarov 3:1-lik üstünlük əldə edib. İkinci matçda da 2,5:0,5 hesablı qələbə şahmatçımızın yarımfinala inamla addımlamasına şərait yaradıb.

Yarımfinalda Hikaru Nakamura ilk matçda Şəhriyar Məmmədyarov üzərində 3:1 hesabı ilə qələbə qazanaraq böyük üstünlük qazanıb. Lakin ikinci matçda 3 qələbə ilə rəqibi inamla 3:0 hesabı ilə yenən şahmatçımız qarşılaşmanın taleyini taybrekə daşıyıb. Bu mərhələdə 2:1 hesablı qələbə qazanan Nakamura finala vəsiqə qazanıb. Digər yarımfinalda Karlsen Ermənistan şahmatçısı Levon Aronyana 2:2, 3:1 hesabı ilə qalib gələrək finala adlayıb.

Şəhriyar Məmmədyarov üçüncü yer uğrunda Ermənistan şahmatçısı ilə üzüzə gəlib. İlk matçda tərəflər hərəyə 2 qələbə qazanıblar və hesab 2:2 olub. İkinci matçda Şəhriyar 2,5:0,5 hesablı inamlı qələbə ilə erməni qrossmeysterin Azərbaycan şahmatçıları qarşısında məğlub psixologiyasından qurtula bilmədiyini nümayiş etdirib və turnirin üçüncü mükafatını qazanıb.

Finalda Maqnus Karlsen Nakamuraya qarşı ilk matçda 3:1 hesablı qələbə qazandıqdan sonra ikincidə 2:2-lik bərabərlik nəticəsində turnirin qalibi olub.

Qeyd edək ki, "Champions Chess Tour" onlayn şahmat seriyası ümumilikdə 10 turnirdən ibarətdir və 2021-ci ilin sentyabrınadək davam edəcək.

***VÜQAR***

# Güləşçilərimiz Olimpiya Təsnifat turnirinə hazırlaşırlar

***Sərbəst güləş üzrə yığmamız aprelin 21-dən Bakıda növbəti təlim-məşq toplanışına start verib.***

Mayın 6-dan 9-dək Bolqarıstanın paytaxtı Sofiyada baş tutacaq Dünya Olimpiya Təsnifat turnirinə hazırlıq xarakteri daşıyan hazırlıq prosesi Olimpiya Güləş Mərkəzində keçirilir. Baş məşqçi Namiq Abdullayev, böyük məşqçi Zəlimxan Hüseynov və məşqçi Arif Abdullayevin rəhbərliyi altında davam etdirilən təlim-məşq toplanışında əsasən, taktiki-texniki çalışmalara üstünlük verilir. Hazırlıq prosesi ölkəmizə təşrif buyurmuş Qazaxıstan millisi ilə birgə keçirilir.

Olimpiadaya lisenziya qazandıracaq sonuncu yarış olan Dünya Olimpiya Təsnifat turnirində millimiz 3 çəkidə - 57, 86 və 125 kiloqram çəkidə Olimpiya Oyunlarına vəsiqə əldə etməyə çalışacaq. Turnirdə ölkəmizi Giorgi Edişeraşvili (57 kq), Abubakr Abakarov (86 kq) və Vahid Qalayev (125 kq) təmsil edəcəklər.

Qeyd edək ki, sərbəst güləşçilərimizdən Hacı Əliyev (65 kq), Hacımurad Hacıyev (74 kq) və Şərif Şərifov (97 kq) artıq "Tokio-2020" Yay Olimpiya Oyunlarına lisenziyanı təmin ediblər. Sofiyada güləşin bu növü üzrə mübarizə mayın 6-7-də baş tutacaq.

Aprelin ilk yarısında Göygöldə fiziki hazırlıq üzrə təlim-məşq toplanışı keçən yunan-Roma güləşi üzrə yığmamız ayın ikinci yarısında Bakıda taktiki-texniki çalışmalara üstünlük verib. Məşqlər baş məşqçi Aleksandr Tarakanov, böyük məşqçi Rövşən Bayramov və məşqçilər Akif Əliyevlə Həsən Əliyevin rəhbərliyi altında keçirilir.

Güləşin bu növü üzrə mübarizə mayın 8-9-da baş tutacaq. Millimiz Dünya Olimpiya Təsnifat turnirində 60, 67, 77, 97 və 130 kq-da Olimpiadaya lisenziya qazanmağa çalışacaq.

Turnirdə ölkəmizi yunan-Roma güləşi yarışlarında Murad Məmmədov (60 kq), Rəsul Çunayev (67 kq), Rafiq Hüseynov (77 kq), Murad Lokiayev (97 kq) və Beka Kandelaki (130 kq) təmsil edəcəklər.

Qeyd edək ki, yunan-Roma güləşçilərimizdən yalnız İslam Abbasov (87 kq) "Tokio-2020" Yay Olimpiya Oyunlarına lisenziya qazanıb. Sərbəst güləşçilərimizdən isə Hacı Əliyev (65 kq), Hacımurad Hacıyev (74 kq) və Şərif Şərifov (97 kq) "Tokio-2020"yə vəsiqəni təmin ediblər. Komandamız mayın 6-da Bolqarıstana yollanacaq.



Qadın güləşi üzrə yığmamız isə Bakıda məşqlərini davam etdirir.

Komanda baş məşqçi Aslan Ağayev və məşqçi Rövşən Umudovun rəhbərliyi altında taktiki-texniki məşqlərdə iştirak edir. Fiziki hazırlıq üzrə məşqlər isə bu sahə üzrə mütəxəssis olan Mark Alan Filippinin nəzarəti altında keçirilir.

Qadın güləşçilər Dünya Olimpiya Təsnifat turnirində mayın 7-8-də mübarizə aparacaq. Təmsilçilərimiz Bolqarıstanda 53, 57, 62, 68 və 76 kiloqramda çıxış edəcəklər. Turnirdə ölkəmizi Türkan Nəsirova (53 kq), Alyona Kolesnik (57 kq), Tatyana Omelçenko (62 kq), Elis Manolova (68 kq) və Gözəl Zutova (76 kq) təmsil edəcəklər.

Qeyd edək ki, qadın güləşçilərimizdən yalnız səkkizqat Avropa çempionu Mariya Stadnik (50 kq) "Tokio-2020" Yay Olimpiya Oyunlarına lisenziya qazanıb.

# Hər oyununda finala bərabər yarımfinal

## Tarixə yeni sətirləri məşqçilər yazdı



***Birillik fasilədən sonra Azərbaycan kuboku yeni sahibinə qovuşa bilər. Əgər pandemiya ilə bağlı hər hansısa problem yaşanmasa, kubokun yeni sahibi mayın 24-də bəlli olacaq.***

Ötən il, ümumiyyətlə, futbol yarışları yarımçıq qaldı. Elə ölkə kuboku da sahibini tapmadı. Ondan əvvəlki iki il isə builki finalçıların iştirakı ilə həlledici oyunlar keçirilib. Lakin 2018-ci ildə "Keşlə" "Qəbələ"ni məğlub edib tarixinin ən yüksək nailiyyətinə sahib çıxmışdısa, "Sumqayıt" ilk finalında tarixinin ilk titulunu qazanan "Qəbələ"yə məğlub olmuşdu. Hər iki oyunda cəmi bir qol vurulmuşdu. Bu dəfə isə "Sumqayıt" tarixinin ilk böyük sətrini yaza bilər.

Əlbəttə, bəlkə də nəticələrə baxmadan bu sözləri eşitmək şox qəribə gələr. Lakin həqiqətən də, builki ölkə kuboku tarixdə xüsusi yer tutacaq. Təkcə favoritlərin uduzması ilə deyil, həm də qalmaqalları ilə.

İlk öncə onu qeyd etmək yerinə düşər ki, "Qarabağ"la "Sumqayıt"ın rəqabəti fantastik məcrada keçdi. Qapılara vurulmayan qollar göz oxşadı və qarşılaşma da elə buna görə sona qədər maraq içində keçdi. Nə qədər qəribə olsa da, "Qarabağ" bu matçın taleyini həll edə bilmədi və penaltilər seriyasının məhz 5-ci zərbələri, deyərdim ki, psixoloji tilsimi qırdı. Beləliklə, ölkə kuboku uğrunda mübarizənin 29 illik tarixində 29-cu dəfə qalibi penaltilər seriyası müəyyənləşdirdi.

"Zirə" isə "Keşlə" ilə oyuna yanaşmasının acısını çəkdi. İlk matçda qələbə komandanı çox dəyişmişdi. Zənnimcə, ötən icmallarda qeyd etdiyimiz kimi, "Zirə" milli çempionatın turnir cədvəlindəki mövqeyinə uyğun oyun göstərməli və rəqiblərinin üzərinə daha fəal və planlı təzyiqlə getməlidir. Əks halda, artıq onun oyun stilinə bələd olanlar istədikləri tempi tutaraq nəticə də əldə edirlər. "Keşlə" də istisna olmadı və matç sözün həqiqi mənasında het-trikə imza atan Sezar Meza Kollinin benefisinə çevrildi. Xüsusən, onun vurduğu sonuncu qol - sürətlə irəliləyib təxminən 25 metrdən qapının sol aşağı küncünə tuşladığı top toru silkələyərək ev sahiblərinin bütün ümidlərini puç etdi. Matçda ən gərgin anlar penalti epizodunda baş verdi. Yan xətt hakiminin qərarı ilə ev sahibi futbolçunun rəqibinə topsuz vəziyyətdə zərbə endirməsindən sonra referi penalti qərarı versə də, rabitə vasitəsilə uzun-uzadı məsləhətləşməsi ev sahibinin baş məşqçisi də daxil olmaqla, qəzəbə keçərək həddini aşan etirazlara gətirib çıxardı və nəticədə, oyunun ipi əldən verildi.

Hər şeyə rəğmən, məğlubiyyət "Zirə"nin sönük və yaradıcılığı olmayan oyununun nəticəsi oldu.

Kubok tarixində ilk dəfə ardıcıl iki final matçına eyni mütəxəssislər komandaların baş məşqçisi kimi üz-üzə olacaqlar. 2018/19-cu illər mövsümündə də "Sumqayıt"ı həlledici qarşılaşmaya yüksəltmiş Ayxan Abbasov o vaxt "Qəbələ"nin baş məşqçisi olan Sənan Qurbanovla qarşı-qarşıya gələcək. Yeri gəlmişkən, onu da deyək ki, Sənan Qurbanov ardıcıl iki finala fərqli komandalarla yüksələn ilk mütəxəssisdir. Ona qədər ardıcıl 3 dəfə finala adını yazdıran mütəxəssislər buna yalnız eyni klubla nail olublar.

Onu da xüsusi əlavə edək ki, final matçının tarixinin 28 maydan ayın 24-nə keçirilməsi ilə yanaşı, məkanı da bəlli olub.

*BATI YAR*

**Azərbaycan Kuboku.**
**1/2 final.**
***Cavab görüşləri:*** 29 aprel (cümə axşamı)
***"Qarabağ" (Ağdam) - "Sumqayıt" 0:0 - pen ilə 4:5***
***Penaltilər seriyası:*** 1. Maksim Medvedev - Camaləddin Xocaniyazov; 2. Toral Bayramov - Elvin Məmmədov (-); 3. Qara Qarayev - Vurğun Hüseynov; 4. Xayme Romero - Xəyal Nəcəfov; 5. Patrik Andrade (-) - Höccət Haqverdi; 6. Kevin Medina (-) - Vüqar Mustafayev.
**İLK OYUN - 0:0.**
**"Zirə" - "Keşlə" 2:3**-ə.v. (Şəhriyar Əliyev, 48-öz qap, Klesio Bauk, 112//Sezar Meza Kolli, 67, 90+1-pen., 93).
**İLK OYUN - 2:1.**
**Final**
24 may. Masazır. "Bank Respublika Arena".
"Sumqayıt" - "Keşlə"



# Atıcılarımız Avropa çempionatında iştirak edəcəklər



***Aprelin 23-dən güllə atıcılarımız Qəbələdə təlim-məşq toplanışında iştirak edirlər. İdmançılarımızın hazırlığı mayın 4-dək davam edəcək.***

Aprelin 23-dən güllə atıcılarımız Qəbələdə təlim-məşq toplanışında iştirak edirlər. İdmançılarımızın hazırlığı mayın 4-dək davam edəcək. Qarşıda bizi Xorvatiyada təşkil olunacaq Avropa çempionatı gözləyir. Yarışda millimizin üzvü Ruslan Lunyov 10, 25 metr məsafəyə atəşaçma yarışlarında iştirak edəcək. Yığma komandamızın digər üzvü Nigar Nəsirova isə 10 metr məsafəyə atəşaçma yarışlarında gücünü sınayaraq Tokio Olimpiadasına lisenziya qazanmağa çalışacaq.

Bu fikirləri güllə atıcılığı üzrə yığma komandanın baş məşqçisi, Olimpiya Oyunlarının bürünc mükafatçısı İradə Aşumova bildirib.

O qeyd edib ki, mayın 4-də Xorvatiyada start götürəcək təlim-məşq toplanışına Ruslan Lunyov da qatılacaq. İ.Aşumova idmançılarımızın mayın 20-də başlayacaq qitə çempionatında yüksək səviyyədə çıxış edəcəklərinə ümid etdiyini bildirib: "Pandemiya şəraitində çətinliklərə sinə gərib məşqlərimizi davam etdiririk. İdmançılarımız formada qalmaları üçün əllərindən gələni edirlər. Ümid edirəm ki, çəkdiyimiz əziyyətlər hədər getməyəcək. Təmsilçilərimiz qitə çempionatında yüksək səviyyədə çıxış edəcəklər".

Tokio Olimpiadasına lisenziya xarakterli yarışa stend atıcılarımız isə 6 idmançı ilə qatılacaqlar. Belə ki, 4 idmançı dairəvi stend, iki təmsilçimiz isə səngər stendi üzrə mübarizə aparacaq. Turnirdə 10, 25 və 50 metr məsafələrdən atəşaçma üzrə yarışlar keçiriləcək.

# Azərbaycan məktəbliləri üçün UEFA-dan layihə

***UEFA və İtaliya Futbol Federasiyasının birgə əməkdaşlığı çərçivəsində "Avro-2020"yə ev sahibliyi edəcək ölkələrdə uşaqlar arasında futbolun kütləviliyinin artırılması, onlar arasında qarışıq rəqabət və yeni oyun formatı yaratmaq, uşaqlara futbol qaydalarını hörmətlə öyrətmək, uşaqların yazı bacarıqlarını və təhsil dəyərlərini təbliğ etmək, UEFA Avropa çempionatına ev sahibliyi edəcək ölkələrin iştirakını genişləndirmək və digər məqsədlərlə "Build Bridges" layihəsi təşkil ediləcək.***




Layihəyə "Avro-2020"yə ev sahibliyi edəcək şəhərlərdə fəaliyyət göstərən məktəblərdə təhsil alan 11-13 yaşlı uşaqlar (qız, oğlan) qatıla bilərlər.

Layihə onlayn platforma üzərindən müxtəlif kriteriyalara uyğun olaraq (fiziki bacarıqlar, musiqi oxumaq, sual-cavab oyunları, son pandemiya dövründə əldə etdiyi təcrübəsini bölüşmək) keçiriləcək.

İştirakçılar qeyd olunan bütün yarışlara qatıla bilərlər. Artıq məktəblilərin qeydiyyat prosesinə start verilib. İştirakçılar http://fis.uefa.com linkindən qeydiyyatdan keçərək yarışa qoşula bilərlər.

İştirakçılar platformada qeyd olunan yarışlara qatılaraq öz videolarını çəkib platformaya yerləşdirməlidirlər. Platformada qeyd olunan fiziki bacarıqlar kriteriyalarında müxtəlif futbol hərəkətlərini İtaliya Futbol Federasiyası tərəfindən təyin olunan məşqçilər verəcək. Bu kriteriyalarda iştirak etmək istəyən iştirakçı həmin hərəkətləri təkrarlayaraq video çəkib platformadan qeydiyyatdan keçərək yerləşdirməlidir.

Yarış iyunun 4-dək davam edəcək. Qalib gələn iştirakçıları UEFA mükafatlandıracaq.

# Qısa-qısa

Gənclər və idman naziri Azad Rəhimovun dünyasını dəyişməsi ilə əlaqədar PFL Premyer liqanın 25-ci və Birinci divizionun 24-cü turlarının oyunlarının 1 dəqiqəlik sükutla başlanması barədə qərar verib.

İsveçrənin Nyon şəhərində atılan UEFA-nın püşkünə əsasən, qadın milli futbol komandalarının 2023-cü ildə Avstraliya və Yeni Zelandiyada təşkil ediləcək Dünya kubokunun seçmə mərhələsində Azərbaycan yığması "E" qrupunda Danimarka, Rusiya, Bosnia və Herseqovina, Malta və Monteneqro ilə mübarizə aparacaq.

Bakıda təşkili nəzərdə tutulan güllə və stend atıcılığı üzrə dünya kuboku yarışları koronavirus səbəbindən ləğv edilib. Yarışların iyunun 21-dən iyulun 2-dək keçirilməsi planlaşdırılırdı.

Rusiyanın Yekaterinburq şəhərində dünya şahmat tacına namizədlərin mübarizə apardıqları iddiaçılar turnirinin qalibi 8,5 xal toplayan rusiyalı Yan Nepomnyaşi olub. Beləliklə, Rusiya təmsilçisi bu il noyabrın 24-dən dekabrın 16-dək Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçiriləcək şahmat tacı uğrunda matçda dünya çempionu Maqnus Karlsenlə mübarizə aparacaq.

# İDMAN

№ 9 (7104) 4 may 2021

## Tokio-2020-nin təşkilatçıları tamaşaçıların iştirakı məsələsini iyunda aydınlaşdıracaqlar




*Tokio Olimpiya və Paralimpiya Oyunlarının təşkilatçıları tamaşaçıların yarışlarda iştirakı və onların sayı məsələsini koronavirus pandemiyası ilə əlaqədar vəziyyəti nəzərə alaraq iyunda aydınlaşdıracaqlar.*

Bu barədə qərar Tokio Olimpiadasının təşkilatçılarının beştərəfli onlayn görüşündə qəbul edilib. Təşkilatçılar, həmçinin təhlükəsizliyi təmin etmək məqsədilə bütün iştirakçı idmançıların gündəlik test verməsi barədə də razılaşıblar.

Eyni zamanda, təşkilatçıların bildirdiyinə görə, əcnəbi idmançılar və əməkdaşlar öz ölkələrini tərk etməzdən əvvəl iki dəfə virus testindən keçəcəklər.

Bildirilir ki, yeni qaydalar təşkilatçıların hazırladığı ”playbooks”un yenilənmiş versiyasında öz əksini tapıb.

”Beynəlxalq Olimpiya Komitəsi (BOK) ”Tokio 2020” Olimpiya və Paralimpiya Oyunlarının uğurlu və təhlükəsiz keçirilməsinə tam sadiqdir", - deyə onlayn görüşü açan BOK prezidenti Tomas Bax bildirib. Əlavə edib ki, təşkilatçılar COVID-19-la bağlı qaydalara tam əməl edəcəklər.

Baş nazir Yoşihide Suqa bu ərəfədə bəyan edib ki, Yaponiya hökuməti Tokio Oyunlarının təhlükəsizliyini və etibarlılığını təmin etmək üçün lazım olan bütün addımları atacaq. Lakin hökumət tərəfindən görülən tədbirlərə baxmayaraq, ölkə üzrə yoluxma səviyyəsini azaltmaq mümkün deyil.

Bununla yanaşı, Yaponiya hökumətinin rəsmi nümayəndəsi Olimpiya Oyunları zamanı idmançıları və rəsmi nümayəndələri qəbul etmək üçün 30 xəstəxananın hazır vəziyyətdə olacağını bəyan edib.

Xatırladaq ki, hökumət Tokioda və bir neçə digər prefekturada mayın 11-dək üçüncü fövqəladə vəziyyət rejimi elan edib. Buna baxmayaraq, aprelin 28-də paytaxtda 925 yoluxma halı qeydə alınıb ki, bu da yanvarın 28-dən bəri ən yüksək göstəricidir.

Aprelin 25-dən qüvvəyə minmiş fövqəladə vəziyyət rejiminə görə, bütün böyük kommersiya obyektləri, tematik parklar, karaoke salonları və spirtli içkilərin təklif edildiyi restoranlar bağlanıb.

Peyvəndləmə prosesinin çox ləng getdiyinə görə tənqid edilən Yaponiyada cari ayın əvvəllərində 65 yaşdan yuxarı insanlara peyvəndlərin vurulmasına başlanılıb. Bu gedişlə Olimpiya Oyunları başlananadək əhalinin əksər hissəsi hələ də peyvəndlənməyəcək.

BOK və Tokio Olimpiadasının təşkilat komitəsi isə bütün iştirakçı idmançılar və rəsmi şəxslər üçün peyvəndin vurulmasını məcburi elan edib.

## Formula 1-də azarkeşlərlə bağlı problem hələ də öz həllini tapmayıb




*Koronavirus pandemiyası ilə əlaqədar Formula 1-də azarkeşlərlə bağlı problem hələ də öz həllini tapmayıb. Müxtəlif Qran-prilərin təşkilatçıları avtodromların qapısını avtoidman həvəskarlarının üzünə açmağa çalışsa da, planı həyata keçirmək mümkün olmur.*

2020-ci ildə avtodromlara azarkeş buraxılmasa da, bu mövsüm tilsimi qırmaq üçün imkanlar var. Xüsusən də, vaksinasiya prosesindən sonra planı həyata keçirmək asanlaşıb. Amma müəyyən ölkələrdə epidemioloji vəziyyəti hələ də nəzarət altında saxlamaq olmur. Bu da qapısını azarkeşlərin üzünə açmaq istəyən Qran-Pri təşkilatçılarını çətin vəziyyətə salır. Bir neçə ay əvvəl Monako Qran-Prisinin rəhbərliyi bilet satışı həyata keçirəcəyini açıqlasa da, hazırda Fransada epidemioloji vəziyyətin acınacaqlı olması onları geri çəkilməyə məcbur edir. Fransa mətbuatının yazdığına görə, artıq təşkilatçılar bu planı ləğv etmək haqda fikirləşirlər. Azarkeşləri yenidən tribunalara cəlb etmək üçün təşkilatçılar yarışdan sonra ”Ferrari”nin pilotu Şarl Leklerı doğma publika ilə görüşdürmək qərarına da gəlmişdi. Bilet satışı ləğv edilsə, bunu həyata keçirmək mümkün olmayacaq.

ABŞ-ın Ostin şəhərində keçiriləcək Qran-Prini azarkeşlərin izləməsi ilə bağlı hazırlıq gedir. Oktyabrın 24-də keçiriləcək yarış üçün biletlər satışa çıxarılıb. Amerika mətbuatının məlumatına görə, bir biletin qiyməti 189 dollardır. Təşkilatçılar Qran-Pri zamanı şou proqram da hazırlamaq fikrindədir. Hətta 6 dəfə Qremmi mükafatının qalibi olan Billi Coel də Qran-Pri çərçivəsində konsert verəcək.

## Aydın Süleymanlıdan Monteneqroda daha bir qələbə



***Aydın Süleymanlı Monteneqronun Niksiç şəhərində keçirilən şahmat turnirində yüksək nəticə göstərərək qalib adını qazanıb.***

Şahmatçımız Aydın Süleymanlı 9 turdan 8 xal toplayaraq birinci yeri tutub. Təmsilçimiz bununla yanaşı, reytinqinə 25 ELO xalı da əlavə edib. Yarışda 5-i qrossmeyster olmaqla, 16 şahmatçı iştirak edib.

Xatırladaq ki, A.Süleymanlı bu turnirdən əvvəl Monteneqroda keçirilmiş ”Vladimir Bato Kontic” memorialında da qalib adını qazanıb.

## Avstraliya hökuməti “Olimpiada-2032”nin təşkili planlarını dəstəkləyir




***Avstraliyanın Baş naziri Skott Morrison federal hökumətin Brisbenin namizəd olduğu ”Olimpiada-2032”nin xərclərinin yarısını ödəyəcəyinə söz verib.***

Bu barədə o, Avstraliyanın Queensland əyalətinin Baş naziri Anastasiya Palaşuka yazdığı məktubda bildirib. Yerli hakimiyyət orqanları əvvəllər də bu layihəyə sadiq olduqlarını bildirmişdilər.

S.Morrisonun belə bir açıqlaması Beynəlxalq Olimpiya Komitəsinin (BOK) 137-ci sessiyasındakı çıxışından sonra gözlənilirdi və bu müddətdə Avstraliyanın Baş naziri hökumətin ”Olimpiada-2032”in təşkili planlarını tamamilə dəstəklədiyini qeyd edib.

Xatırladaq ki, BOK mart ayında Brisbeni 2032-ci ildə keçiriləcək Yay Olimpiya Oyunlarına ev sahibliyi etmək üçün əsas namizəd şəhər elan edib.

## Formula 1 Türkiyə Qran-prisi yenidən təqvimə salındı




***Koronavirus pandemiyasına görə ardıcıl 2-ci dəfə ləğv olunan Kanada Qran-prisini əvəzləyəcək yarış müəyyənləşib. Yarışın bu mərhələsi Türkiyədə təşkil olunacaq.***

11 - 13 iyunda nəzərdə tutulan Qran-pri, ötən il olduğu kimi, ”İstanbul Park” trasında keçiriləcək.

Qeyd edək ki, Azərbaycan Qran-prisi 4 - 6 iyunda olacaq.

## Luis Hamilton karyerasında 97-ci qələbəsini qazanıb




***Mayın 2-də Formula 1 Portuqaliya Qran-Prisinin qalibi müəyyənləşib.***

Yarışda ”Mercedes”in pilotu Luis Hamilton birinci olub. Maks Ferstappen (”Red Bull Racing”) yarışı ikinci, Valtteri Bottas (”Mercedes”) isə üçüncü pillədə başa vurublar. Hamilton cari mövsüm ikinci, karyerasında isə 97-ci qələbəsini qazanıb.

Pilotların siyahısına 69 xalla L.Hamilton başçılıq edir. M.Ferstappen 61 xalla ikinci, Lando Norris (”McLaren”) isə 37 xalla üçüncü pillədə yer alıb. Konstruktorların mübarizəsində ”Mercedes” 101 xalla birinci, ”Red Bull” 83 xalla ikinci, ”Maklaren” 53 xalla üçüncü yerdə gedir.

Növbəti yarış mayın 9-da Barselonada təşkil olunacaq.

Qeyd edək ki, Luis Hemilton daha əvvəl Bəhreyn Qran-prisini qazanıb. Britaniya təmsilçisi Formula 1 üzrə yeddiqat dünya çempionudur. O, qələbə sayına görə dünya rekorduna imza atıb.

Qəzetin təsisçisi
Azərbaycan Respublikasının
Gənclər və İdman Nazirliyidir

Baş redaktor: Qabil MEHDİYEV

Ünvan: AZ-1073, Bakı, Mətbuat prospekti, 529-cu məhəllə,
III mərtəbə. Telefon: faks: 510-53-10,
Web: www.azsport.az;
E-mail: idman@mys.az; Lisenziya: B235
Bank rekvizitlərimiz: h/h-AZ69AIIB33080019443300230103,
VÖEN: 1300432691, "Kapitalbank"ın Yasamal filialı, kod-200037,
VÖEN: 9900003611, Müxbir hesab: AZ37NABZ01350100000000001944

“İdman”ın kompüter mərkəzində yığılıb-səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.
Tiraj: 1000 Sifariş: 813
Qəzet hər həftənin çərşənbə axşamı günü çıxır.
Redaksiyaya daxil olan yazılar şərh edilmir və geri qaytarılmır.